## Mif 8:
### Dağınıq skleroz xəstəliyi qadını dünyaya uşaq gətirmək imkanından məhrum edir

Dağınıq sklerozu olan qadının övladı ola bilər. Qadınlarda yumurta hüceyrəsinin yetişməsi və kişilərdə spermatozoidlərin hasil olması bu xəstəlik zamanı pozulmur. Dağınıq sklerozlu qadınlarda doğuşun orqanizmə təsiri xəstə olmayan qadınlarda olduğu kimidir.

## Mif 9:
### Dağınıq skleroz əzələlərin atrofiyasına gətirib çıxarır

Dağınıq skleroz sinir toxumalarındakı mielin qişasının iltihabı ilə xarakterizə olunur.
Bu halda sinirlər “müdafiəsiz” qaldığından impulsun sinirlərə ötürülmə sürəti azalır ki, bu da əzələlərin atrofiyasına deyil, qüvvədən düşməsinə gətirib çıxarır.

## Mif 10:
### Dağınıq skleroz zamanı fiziki hərəkətlər etmək qadağandır

İdman və fiziki məşğələlər dağınıq sklerozu olan insanlara çox vacibdir. Dərman müalicəsi məhdudlaşdırılmış hallarda fiziki fəaliyyəti fizioterapiya ilə birgə kompleks şəklində yaxşılaşdırmaq olar. Bu isə ağrı və spazmları aradan qaldırmağa kömək edə bilər. Üzgüçülük, velosiped sürmə, at sürmə dağınıq sklerozlu insanlara xüsusi göstərişdir.

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Buklet Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2012-ci il tarixli 2542 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı”nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 5.1-ci bəndinə uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

# Dağınıq skleroz haqqında 10 MİF



**Dağınıq skleroz diaqnozu qoyulmuş insanlar tez-tez bu xəstəlik haqda çoxlu miflər, onunla bağlı anlaşılmaz və yarıgerçək fikirlərlə rastlaşırlar. Həmin mifləri təkzib edən bu buklet ümidsizliyə qapılmamaq və müəyyən məqsəd əldə etməkdə sizə kömək edəcəkdir.**

# Mif 1:
## Dağınıq skleroz nəsildən nəslə ötürülür

Dağınıq skleroz əslində irsi xəstəlik deyildir. Əgər əkizlərdən birində bu xəstəlik varsa, bu o demək deyildir ki, eyni genetik quruluşa malik o biri əkiz tayında da həmin xəstəlik olsun. Ətraf mühit faktorları, sənayeləşdirilmə, viruslar və iqlim də bu xəstəliyin yaranmasında rol oynayır.

# Mif 2:
## Simptomlar olmadığı halda müalicəyə başlamaq vacib deyil

Yaxın vaxtlara qədər yalnız aydın simptomları üzə çıxdıqdan sonra dağınıq skleroza qarşı müalicə aparılırdı. Lakin məlum olmuşdur ki, xəstəliyin lap erkən mərhələlərində belə sinir hüceyrələrinin (neyronların) ciddi zədələnməsi baş verir, bu isə yaddaş, diqqət və informasiyanın işlənməsi kimi funksiyaların pozulmasına gətirib çıxarır.

# Mif 3:
## Dağınıq skleroz ölümcül xəstəlikdir

Ümumilikdə dağınıq skleroza ölümcül xəstəlik kimi baxılmır. Dağınıq sklerozlu insanların əksəriyyətində həyatın davam etmə müddəti adi insanlardan demək olar ki, fərqlənmir. Dağınıq skleroz zamanı kəskinləşmələr 10%-dən də az hallarda insanların ölümünə gətirib çıxara bilər. Hal-hazırda dağınıq sklerozu olan insan həyatda orta yaşama müddətindən cəmi 7 il az yaşaya bilər.

# Mif 4:
## Dağınıq skleroz həmişə əlillik arabasına gətirib çıxarır

Bu heç də belə deyildir. Müalicə imkanlarının artması və fizioterapiya hesabına bu xəstəliyin proqressivləşməsi ləngiyir. Müasir immunomodulyasiyaedici preparatlar kəskinləşmələrin tezliyini və əlilliyin proqressivləşməsini aşağı salır.

# Mif 5:
## Dağınıq skleroza iradənin möhkəmliyi hesabına qalib gəlmək mümkündür

Dağınıq sklerozu olan bəzi insanlar vəziyyətlərinin pisləşməsində özlərini günahlandırır və hesab edirlər ki, pisləşməyə yol verməmək üçün lazımi qədər çalışmayıblar. Bu fikir yanlışdır, çünki dağınıq sklerozun simptomları birdən yaranıb və gözlənilmədən də keçə bilər.

# Mif 6:
## Dağınıq sklerozu xüsusi pəhrizlə müalicə etmək olar

Müalicə məqsədilə tutulan pəhriz, tərkibində əvəzedilməz qida maddələri olmadığı üçün, əksinə daha çox ziyan vura bilər. Daha çox meyvə-tərəvəz qəbul etmək, heyvan mənşəli yağların istifadəsini azaltmaq lazımdır.

# Mif 7:
## Dağınıq skleroz iş qabiliyyətinin itirilməsinə gətirib çıxarır

Əlbəttə dağınıq skleroz iş qabiliyyətinə təsir edə bilər bu isə işin növündən və orqanizmin vəziyyətindən asılıdır. Əgər dağınıq skleroz tarazlığın pozulması nəticəsində baş verə biləcək bədbəxt hadisə riskini artırırsa, bu halda işəgötürən şəxsə məlumat verməyiniz sizin maraqlarınız daxilindədir.